KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 16 (127), 1 - 8 İyul Tîrmeh sal 2011
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



## İlham Əliyev İran İslam Şurası Məclisinin sədri Əli Laricaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir



## “HƏR BİR XALQIN MİLLİ MƏNSUBİYYƏTİ ONUN QÜRUR MƏNBƏYİDİR”

***Heydər Əliyev***

***“Parlamentimizdə 20-yə yaxin təmiz kürd deputat var” - Hani? Qoy biri etiraf etsin.***

***Rəbiyyət Aslanova:*** *“Bu günə qədər “kürdsən” ifadəsi altında hansısa bir fərqli münasibətin sərgilənməsinin şahidi olmamışıq”*

***Cümşüd Nuriyev:*** *“Rusiyada hazırlanan layihədə 2015-ci ildə Azərbaycanda “kürd dövləti” yaratmaq planı var”*

*Milli Məclisin İnsan haqları komitəsinin sədri Rəbiyyət Aslanova bir qrup kürd xalqına mənsub şəxsin prezidentə müraciətini şərh edərkən belə avantürist məqsədin gizli niyyətlərdən xəbər verdiyini bildirib.*

***“Yeni Musavat”***

Hörmətli Rəbiyyət xanım, mən Tahir Süleyman “Diplomat” qəzetinin təsisçi və baş redaktoru 1992-ci ilin o çətin günlərində, xalqimizin xilaskarı, Ulu Öndər Heydər Əliyev cənabları ilə dəfələrlə görüşəndə, mən heç zaman sizlər kimi kreslo xəyalı ilə yaşamamışam. Yalnız sağlığında Ulu Öndərə can sağlığı arzulamışam, indi isə böyük ehtiramla rəhmət diləyirəm və onun ideyalarına xidmət edirəm.

Səh. 3




Səh. 4

## Заседания Социал, интернационала начались



Səh. 16

## Президент жёстко осудил бомбардировки Ирана

Səh.7



## Güç Nerede Öcalan Orada



Səh. 12

## Курдские депутаты турецкого парламента вновь вступили в БДП



## Bağımsızlar Gurup Kurmak İçin BDP’ye Katıldı

Səh. 7

www.netewe.com

1:4-=.QXD 1/1/2004 5:26 AM Page 2



# İlham Əliyev Bakıda "Kempinski Hotel- Badamdar" kompleksinin açılışında iştirak etmişdir



Bakıda "Kempinski Hotel-Badamdar" kompleksinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılış mərasimində iştirak etmişlər.

Mərasimə toplaşanlar dövlətimizin başçısını, xanımını və ailə üzvlərini hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, ekoloji cəhətdən təmiz təbiəti olan 2,5 hektar ərazidə inşa edilmiş otel kompleksinin ümumi sahəsi 84 min kvadratmetrdir. "Gilan-İnşaat" MMC tərəfindən aparılmış tikinti işləri 2008-ci ilin sentyabrında başlanmış, 2011-ci ilin mayında sona çatdırılmışdır.



Bildirildi ki, kompleksə otel, mənzillər və ofis binaları, alış-veriş və əyləncə mərkəzi daxildir. Həmin binalarda istirahət otaqları, mənzillər, konfrans zalı, toplantı otaqları, yerli və xarici mətbəx nümunələri təqdim edən üç restoran, şadlıq mərasimlərinin keçirilməsi üçün 750 nəfərlik ziyafət zalı, SPA mərkəzi, tennis kortu, basketbol, buz-sürüşmə meydançaları, boulinq zalı, açıq və qapalı üzgüçülük hovuzları, örtülü avtomobil dayanacağı, mağazalar, amfiteatr və aquapark yerləşir.

Kompleksin birinci mərhələsi – otel binasında yaradılmış şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına bildirildi ki, burada ən yüksək standartlara cavab verən 283 nömrədə müştərilərin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılmışdır. Oteldəki iki restoran və üç bar qonaqlara yerli və xarici mətbəxin nümunələrini təqdim edəcəkdir. Otelin Azərbaycanda bənzəri olmayan 3,5 min kvadratmetr sahəni əhatə edən SPA mərkəzi, 24 masaj otağı, üzgüçülük hovuzu, gözəllik salonları, sauna, hamam və s. müştərilərin sağlamlığının və rahatlığının yüksək səviyyədə təşkilinə imkan yaradır.




Prezident İlham Əliyev kollektivi təbrik edərək Bakıda dünya şöhrətli mehmanxanalar şəbəkəsi olan "Kempinski Hotel-Badamdar" kompleksinin açılmasını Azərbaycanın inkişafının göstəricisi olduğunu vurğuladı. Bakının sürətlə inkişaf etdiyini, gözəlləşdiyini diqqətə çatdıran dövlətimizin başçısı sərmayədarların Azərbaycan iqtisadiyyatına, xüsusilə xidmət sektoruna diqqət və marağının artmasını sevindirici hal kimi qiymətləndirdi.

Ölkəmizdə turizmin inkişafına böyük diqqət göstərildiyini bildirən Azərbaycan Prezidenti "Turizm ili" çərçivəsində beşulduzlu altı otelin açılacağını vurğulayaraq, bunun ölkəmizdə turizmin, xidmət sektorunun sürətli inkişafının göstərici olduğunu qeyd etdi.

Avropa ölkələrindəki Kempinski otellər şəbəkəsinin prezidenti Canni van Daalen açılış mərasimində iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirərək ölkəmizlə qurulan münasibətlərin daha da inkişafına ümidvar olduğunu qeyd etdi.

Sonra Prezident İlham Əliyev otel kompleksinin xatirə kitabına ürək sözlərini yazdı.

Otel kompleksinin kollektivi dövlətimizin başçısı və ailə üzvləri ilə xatirə şəkli çəkdirdi.

Kompleksin mənzillər və ofislər binası ilə tanış olan Prezident İlham Əliyevə bildirildi ki, 14 mərtəbəli binada ailəsi ilə bərabər istirahət etmək istəyən müştərilər üçün 37 mənzil vardır. Mənzillər hər bir ailənin yüksək səviyyədə istirahəti üçün bütün məişət avadanlığı ilə təchiz edilmişdir. Bundan başqa, ziyafət, iclas-konsert zalları, görüş və ofis otaqları ən son texnologiyalarla təmin olunmuşdur.

"Kempinski Hotel-Badamdar" kompleksinin alış-veriş və əyləncə mərkəzinin üçmərtəbəli mağazalar sahəsi ən yüksək tələblərə cavab verir. Burada dövlətimizin başçısı kompleksin növbəti - dördüncü mərhələsində görüləcək işləri əks etdirən fotoşəkillərlə tanış oldu.

Prezident İlham Əliyev və ailə üzvləri buz meydançasında idmançıların çıxışlarını izlədilər.

Dövlət başçısı görülmüş işlərdən razılığını bildirdi.

# "HƏR BİR XALQIN MİLLİ MƏNSUBİYYƏTİ ONUN QÜRUR MƏNBƏYİDİR"

## Heydər Əliyev



Əvvəli səh. 1-də

Görəsən nəyə əsasən Rəbiyyət xanım və ya başqası kürd xalqının haqlarını "müdafiə" etməlidir.Olmazmı yuxarıda sadaladığınız 20-i millət vəkilindən biri qeyrətə gəlib kürd kimi meydana çıxsın və kürd xalqının mənafeyini müdafiə etsin.

Görünür sizlər Heydər Əliyev hakimiyyətinin kreslolarında əyləşib, onun tövsüyələrini yaddan çıxarırsınız. Öndərimizin "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir" məşhur kəlamı sizi düşündürübmü? Necə ola bilər ki, siz Milli Məclisin İnsan haqıarı komitəsinin sədri olaola, bir qrup kürd xalqına mənsub şəxsin prezidentə müraciətini avantürist hesab edəsiniz? Siz kimsiniz, özünüzü kim hesab edib qəhrəman kürd xalqını təhqir edərək avanturist adlandırırsınız?

Mənə elə gəlir günah sizdə deyil, günah sizi o kresloya qoyandadır. Çünki hələ siz bir millət vəkili olaraq öz haqlarınızı bilmirsiniz. Əgər siz öz haqlarınızı bilsəydiniz, bu gün kürd gənclərinin hörmətli prezidentimiz İlham Əliyev cənablarına müraciətinə haqq qazandirardiniz.

Hörmətli Rəbiyyət xanım, 1938-ci ilin əhalinin siyahıya alinmasında Abdallar(Laçın), Qubatlı, Kəlbəcər əhalisinin 79% kürd olduğu qeyd olunurdu. Təkcə Dərələyizdə 290 kürd kəndləri ermənilər tərəfindən dağıdılıb. Əgər kürd xalqı o bölgədə olmamışdısa nəyə göə o bölgə 1921-1931-ci ilə qədər Kürdüstan qəzası adlanırdı? Qoy Türküstan qəzası adlandırılaydı. Lakin ermənilərlə erməni sayağı ovaxtki dövlət rəhbərləri , Kürd xalqının qəhrəman oğulları Qaçaq Nəbinin, Sultanbəyin, Xosrovbəyin yurdunu ermənilərə verərək erməni DQB-ğı yaradaraq bugünkü bəlalari bu xalqın başına açdılar. O illərdə Şuşada kürd dilində texnikom, kəndlərdə orta məktəblər var idi. "Sovet Kürdüstanı" adlı qəzet səhf etmirəmsə 1961-ci ilə qədər nəşr olunurdu. Hani bunlar İnsan Haqları komisiyasının sədri? O bölgədə yaşayan kürdlər kosmosa uçdu, yoxsa asimiliyasiya oldu? Siz və İlyas İsmayılov kimilər beləmi insan haqlarını müdafiə edirsiniz?

Kürd xalqının dəyərli oğlu, Azərbaycan nəsrinin qartalı Süleyman Rəhimov, əsərlərində kifayət qədər kürd xalqından bəhs etmişdir. Lakin bu gün onun oğlu Şamo Arifin ailəsi bir kəlmədə olsun kürd dilində danışa bilmir.

Xalq şairi Səməd Vurğunun qardaşı Mehtixan Vəkilov öz xatirələrində babalarının Diyarbəkirdən gəldiklərini, milli mənsubiyyətinin kürd olduğunu yazırdı.Vəkilovlar ailəsində kürd nişanəsi qalıbmı?

Tanınmış alim, yazıçı, tədqiqatçı kürdşünas mərhum Şamil Əsgərov kürd dilində kifayət qədər əsərlər yazıb, lakin ailəsindən heç kim kürd dilini bilmir. Bumudur sizin İnsan Haqları?

Müasir Azərbaycan poeziyasının şah budağı Hüseyn Kürdoglu özü kifayət qədər kürdşünaslıqla məşğul olmuşdu, laki ailəsindən heç kim kürd dilini bilmir.

Azərbaycanda yeganə kürd yazıçısı olan Əhmədə Həponun , kifayət qədər kürd dilində kitabları nəşr olunub, görəsən Azərbaycan kürdlərinin 1%-i o kitabları oxuya bilirmi? Əhməd müəllimin də ailəsində kürd dilini bilən yoxdur.

Kürd Mədəniyyət Mərkəzinin sədri Kamil həsənov, Azərbaycan kürdlərinin mədəniyyətini inkişaf etdirən şəxs, kürd dilini bilmirsə buna insanlığın faciəsi deyərlər. Bu siyahını istədiyimiz qədər artıra bilərik. Heç bir kəsin haqqı yoxdur ki, Allahtalanın yaratdığı insan övladına , verdiyi dilinə həqarət etsin. Cənablar bu bir qədim qəhrəman xalqın məhfi, faciəsi, asimiliyasiyası deyilmi?

Hörmətli Rəbiyyət xanım, yəqin siz də bizimlə razılaşarsiniz ki, Azərbaycan telekanallarında xalqımızın milli mintaritetinə yaraşmayan filmlər nümayiş edilir. Olmazmı siz İnsan Haqlari komisiyasının rəhbəri kimi məsələ qaldırasınız, bu tele kanallarda həftədə yarım saat azsaylı xalqların dilində verliş getsin. Azsaylı xalqların mədəniyyəti inkişaf etsin. Mən bu məsələni qaldıran gənclərə əhsən deyirəm və bu məsələ çoxdan gündəmə gəlməli idi.

Bəlkə siz istəyirsiniz ki, kürd gəncləri də Azərbaycanın bir sıra təşkilatları kimi, Avropadan, Amerikadan, dolayı yolla Ermənistandan, Rusiyadan qrantlar alsın Azərbaycan dövlətçiliyinin əlehinə çalışsın?

Xeyr cənablar, kürd xalqı tarixən dostuna sadiq, düşməninə qarşı qəddar olub. İnanırıq ki, kürd gəncləri düzgün addım atıb, hörmətli prezidentimiz cənab İlham Əliyevə müraciət ediblər. Ataların gözəl bir məsəli var "Ağıllı övlad atasından yardım istər". Bəli, gənclərimiz çox düzgün edib ölkə Prezidentinə müraciət ediblər və biz elə güman edirik ki, hörmətli prezidentimiz İlham Əliyev cənablari bu məsələyə olumlu cavab verəcək!

Qaldı Cümşüd Nuriyevin: "Rusiyada hazırlanan layihədə 2015-ci ildə Azərbaycanda "kürd dövləti" yaratmaq planı var" deməsinə görə, yəqin bu işdə onunda əli var ki, xəbərdardır.

Mənim və mənim kimilərin bu söhbətdən xəbəri yoxdur. Qoy Cümşüd Nuriyev narahat olmasin Azərbaycanin hüquq mühafizə orqanları çox ayıq-sayıq çalışırlar, heç kim həddini aşa bilməz.

Qaldı bir sıra qəzetlərin bizim adımıza qara yaxması, onların adlarını çəkməyə belə dəyməz, köhnə peşələridir. Onlar əlifi gilif yazmaqdan da otərəfə keçərək, əlifi bilif yazırlar. Yazin cənablar yazın.Onsuzda siz bu sənətinizdən əl çəkməyəcəksiniz , çünki əl çəksəniz maaliyyə dəstəyiniz kəsilə bilər.

Bilməyinizi istəyirəm ki, mənim Kürd xalqının Milli Azadlıq Hərəkatı olan Kürdüstan İşçi Partiyası ilə əlaqəm olsaydı, mənim də Sabir Rüstəmxanlı kimi yüksəkmərtəbəli ofisim olardı. Baxmayaraq dəfələrlə "Azərbaycan Dövlət Nəşiriyatı"-nın rəhbərliyinə müraciət etsəm də hər dəfə "yerimiz yoxdur" cavabını almışıq. Kirayə qaldığım ev mənim ofisimdir.




Hörmətli dövlət məmurları, millət vəkilləri gəlin Ulu Öndərimizin tövsiyələrinə hörmətlə yanaşaq onun "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir" hikmətli sözünə dəyər verək. Hörmətli cənablar dil milli varlıqdır, dil yoxdursa millətdə yoxdur. Gəlin xalqlarımızın milli heysiyatı ilə oynamayaq, biri-birimizin milli mənsubiyyətinə hörmətlə yanaşaq.

***Tahir Süleyman***

1:4-=.QXD 1/1/2004 5:26 AM Page 4



# Azərbaycan mətbuatı bizdən nə yazır?

# "PARLAMENTİMİZDƏ 20-yə YAXIN TƏMİZ KÜRD DEPUTAT VAR"

***Xəbər verildiyi kimi, bir qrup kürd əsilli gənc dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayıb. Daha çox ultimatuma bənzəyən müraciətin müəllifləri kürdlərin Azərbaycanda bir xalq kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını iddia edib. "Diplomat" qəzetinin redaktoru Tahir Süleyman isə qəzetimizə açıqlamasında müraciət müəllifi olmadığını desə də, bəzi iddialara şərik olub. "İstərdim ki, parlamentdə iki kürd deputat olsun "deyə, o bildirib.***

Milli Məclisin İnsan haqları komitəsinin sədri Rəbiyyət Aslanova bir qrup kürd xalqına mənsub şəxsin prezidentə müraciətini şərh edərkən belə avantürist məqsədin gizli niyyətlərdən xəbər verdiyini bildirib. Modern.az saytına açıqlamasında komitə sədri deyib ki, guya hüquqlarının pozulduğunu iddia edən kürd gənclərinin müraciəti ilə bağlı faktın mahiyyətinə varanda, uzağa gedən maraqlar ortaya çıxır: "Yaxın Şərqdə, İraqda böyük analitik mərkəzlər tərəfindən qaynaqlanan prosesin Azərbaycana köçürülməsi yolverilməzdir. Və mümkün olan şey deyil. Mən bu məsələnin ortaya atılmasının bir səbəbini görürəm. Bu cəhdlər Azərbaycanın bütövlüyündən, xalqlar arasında hökm sürən yüksək münasibətlərdən qorxuya düşən, ona təsir etməyə çalışan ayrı-ayrı mənbələrin istəkləridi. Həmin istəklərə cavab verən insanlara acıyıram. "Biz kürdük deyə hüquqlarımız pozulur" ,-ifadəsini işlədən hər kəs aparılan siyasəti bir daha izləsin. Həqiqətin gözünə açıq baxsın. Onlar Azərbaycana qarşı aparılan siyasətə yardımçı olmamalıdırlar. Bu gün dünyada "parçala və hökm sür" siyasətinin yeni variantda gerçəkləşməsi göz qarşısındadır. Yaxın Şərqdə proseslərin əksəriyyəti elə kürd məsələsi ilə başladı. Bu gün Türkiyənin parçalanmasına aparan məsələ kürd məsələsidir, İraqda baş verən hadisələrin kökündə kürd dövlətini yaratmaq məsələsi durur".



**Rəbiyyət Aslanova:** *"Bu günə qədər "kürdsən" ifadəsi altında hansısa bir fərqli münasibətin sərgilənməsinin şahidi olmamışıq"*

R.Aslanova qeyd edib ki, Azərbaycan dilindən, irqindən asılı olmayaraq birgə yaşayışın çox böyük mədəni məkandır. Ölkədə tolerantlıq mühitinin formalaşmasının bu günün deyil, yüz illər qabaq yaranmış münasibətin nəticəsi olduğunu deyən deputat Azərbaycanda heç vaxt etnik və dini zəmində qarşıdurma olmadığını vurğulayıb. Deputat qeyd edib ki, dünya üzrə 35 milyonluq kürdün çox az bir hissəsi keçmiş SSRİ ərazisində yaşayıb: "Bu günə qədər "kürdsən" ifadəsi altında hansısa bir fərqli münasibətin sərgilənməsinin şahidi olmamışıq. Məni də çox təəccübləndirən budur ki, hansısa bir tədbirdə kürd mədəniyyətinə, dilinə və s. qarşı ögey münasibətə dair yanlış fikirlər səslənir. Bu xalq öz dilində danışır, mədəniyyətini, adətini, ənənəsini qoruyur. Bununla əlaqədar kürdlərə qarşı hər hansı məhdudiyyətlərin olması faktı ortada yoxdur".

Politoloq Cümşüd Nuriyev bildirdi ki, bu bəyanatın verilməsi çox ciddi bir təhlükədən xəbər verir. Ekspert bəyanatın Kazan görüşündən dərhal sonra ortaya çıxmasını da təsadüfi saymır: "Açığı mən bu addımın arxasında başqa şeylər görürəm.



**Cümşüd Nuriyev:** *"Rusiyada hazırlanan layihədə 2015-ci ildə Azərbaycanda "kürd dövləti" yaratmaq planı var"*

Əvvəla, onu görürəm ki, Ermənistanın Azərbaycana təzyiq etməsi üçün yeni "kürd kartı"ndan istifadə edilir. İkincisi, burda təkcə erməni və rusun deyil, farsın da əlinin olduğunu görürəm. Üçüncüsü, məsələnin burda gündəmə gətirilməsi Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salmağa xidmət edir. Dördüncüsü, kürdofobiyanın Sərkisyanın Avropa Şurasındakı ermənifobiya haqqında çıxışından sonra gündəmə gəlməsi təsadüfi deyil. Bu, nankorluqdur. Fakt budur ki, Azərbaycan dövlətinin içərisində kiməsə kürd olduğuna görə fərq qoyulmayıb. İkincisi də həmin gənclərə əvvəlcə xatırladıram ki, Azərbaycan parlamentində siyahıya baxsınlar və kimlərin kürd olduğunu görsünlər". C.Nuriyev kürd deputatların kimliyini konkretləşdirməsə də, qeyd etdi ki, parlamentdə 20-yə qədər təmiz kürd var: "Digər tərəfdən də bu gənclər hökumətdə nazir, nazir müavinləri səviyyəsində kürdlərin olduğunu da unutmasınlar. Əgər MTN məsələni diqqətlə araşdırsa, bu qüvvələrin arxasından hazırda Azərbaycana nifrət edən və hakimiyyətdə olan bir qrup adam çıxacaq. Onların içərisində kürd də var, yarım kürd də. Bunların əsas məqsədi Azərbaycan-Ermənistan münasibətlərindən diqqəti yayındırmaq, Azərbaycanı Qarabağdan kənarlaşdırmaqdır.

İkincisi, Azərbaycanda aktikorrupsiya tədbirlərinin getdiyi bir zamanda hakimiyyətdə kifayət qədər harınlayan bir qrup adamlar, - bunların içində kürd də var - özlərindən diqqəti yayındırmaq və yığdıqlarına sahiblənib ondan daha geniş miqyasda Azərbaycan əleyhinə istifadə etmək istəyirlər. Bunun da artıq ilkin işartıları gündəmə gəldi".

C.Nuriyev kürd xalqını çox mərd xalq kimi tanıdığını, onların birinci Qarabağ savaşında şəhidlər verdiyini, bu sırada Milli Qəhrəman adını alan döyüşçülərin olduğunu xatırlatdı: "Özü də ötən əsrin əvvəlində Andronikin dəstəsi və 1914-cü ildə Rusiya qoşunu 40 min yox, 200 min kürd qırıb. Bunu kürdlər yox, biz araşdırıb ortaya qoymuşuq ki, türklərlə bərabər, kürdləri də qırıblar. Bu gün Türkiyədə BDP-nin atdığı addımla bərabər, Azərbaycanda yeni bir "BDP"-nin gündəmə gətirilməsi yüzdə-yüz sifarişlidir".

Politoloq bir mühüm məqama da diqqət çəkdi: "Açığı, mən belə addımları bir az gec gözləyirdim. Çünki bunların layihəsində Azərbaycanda 2015-ci ildə kürd dövləti yaratmaqdır. Daha doğrusu, Naxçıvanı "kürd dövləti" etmək planı var. Mən hələ 2000-ci ildə "Yeni Müsavat"a demişdim. O vaxtdan bu layihə Rusiyanın Yaroslavl vilayətində hazırlanmışdı. İndi bunun tələm-tələsik gündəmə gəlməsi Rusiyanın Qarabağ məsələsində iflası və Türkiyədə BDP-nin parlamentə getməməsi ilə üst-üstə düşdü".

C.Nuriyev qeyd etdi ki, Azərbaycanın üç rayonunda kürdlər yaşayıb: "Kürdlər Laçının 9 kəndində - birində də yarımçıq, Kəlbəcərin 6 kəndində, Qubadlının isə 4 kəndində yaşayıblar. Bu da haradasa 20 min əhali deməkdir. Ermənistandan qovulanları da bura əlavə etsək, 50 min nəfər edir. Parlamentdə, hökumətdə də kürd əsillilər var. Sadəcə onların hamısı milli mənsubiyyətini gizlədir ki, bu, bizim problem deyil, özlərinindir. Bu bəyanatı verən gənclər heç olmasa hakimiyyətdə olanların çörəyinə bais olmasınlar. Hər halda, onlara dil verən var, həmin dil verəni tapmaq lazımdır".

***E.PAŞASOY***

**Davamı səh. 5-də**

www.kurdist.com

1:4-=.QXD 1/1/2004 5:26 AM Page 5



# Kürdlər hakimiyyətə ultimatum verdi

## Azərbaycanda süni "kürd problemi" yaradılır

**Əvvəli səh. 4-də**

Bərzani ilə sıx əlaqədə olan «Diplomat» qəzetinin keçirdiyi tədbirin arxasında hansı məqsəd dayanır?

Azərbaycanda PKK-nın ruporu kimi tanınan "Diplomat" qəzetinin təşkilatçılığı ilə dünən Beynəlxalq Mətbuat Mərkəzində (BMM) mətbuat konfransı keçirilib. Maraqlıdır ki, tədbirlə bağlı redaksiyamıza daxil olan press-relizdə mətbuat konfransının ermənilərin 1915-ci ildə 800 min kürdü qətlə yetirməsi ilə bağlı keçiriləcəyi qeyd olunmuşdu. Lakin tədbir zamanı bəlli olub ki, mövzu tamam başqadır. Təşkilatçılar erməniləri deyil, Azərbaycan dövlətinin ünvanına ittihamlar yağdırıb. Mətbuat konfransında bir qrup kürd əsilli gəncin Ilham Əliyevə müraciəti də səsləndirilib. Müraciətdə iddia olunur ki, kürdlər Azərbaycanda bir xalq kimi məhv olmaq təhlükəsi ilə üzüzə qalıb. Azərbaycanda digər xalqların uşaq bağçaları, məktəb, teatr, folklor qrupları olduğu, mədəniyyətləri telekanallarda təbliğ edildiyi halda, kürdlər bundan məhrum olunub.

Müraciət müəllifləri həmçinin bildirib ki, Milli Məclisdə digər xalqlardan deputatlar olduğu halda, kürdlərin parlamentdə təmsilçisi yoxdur.

"Azərbaycanda yaşayan kürd əhalisində belə fikir formalaşıb ki, kürd olmağımızı söyləsək, pis münasibətlə qarşılaşıb, təzyiqlərə məruz qalarıq", - deyə müraciətdə iddia olunur.

Tədbirin adının başqa cür qoyulması güman ki, mətbuat konfransına daha çox media nümayəndəsinin diqqətini cəlb etmək məqsədi daşıyıb. Lakin əsas problem bu deyil. Əsas problem ilin-günün bu vaxtında belə bir tədbirin keçirilməsidir ki, bununla bağlı bir neçə versiya irəli sürmək olar. Birinci versiya ondan ibarətdir ki, tədbir hakimiyyətin sifarişilə təşkil edilib. Söhbət ondan gedir ki, Azərbaycan hakimiyyətinin adı həmişə terrorçu təşkilat PKK ilə yanaşı hallanır. Hələ bir neçə il əvvəl Beynəlxalq Böhran Qrupu Azərbaycan hökumətinin PKK ilə əlaqələrinə diqqət çəkmişdi. Bundan başqa, terror təşkilatının rəhbəri, hazırda həbsdə olan Abdullah Öcalan məhkəmə prosesi zamanı Azərbaycanı PKK-nın əsas maliyyə mənbəyi olduğunu bəyan etmişdi. Üstəgəl Azərbaycan hakimiyyətində kürd əsilli məmurların yüksək potslar tutması və onların PKK ilə ilişgiləri barədə iddialar da var. Və bu iddialara qarşı hələ ki, cavab verilməyib. Yeri gəlmişkən, Azərbaycanda nəşr olunan "Diplomat" qəzetinin açıq şəkildə PKK-nı təbliğ etməsinə də rəsmi şəkildə hər hansı irad bildirilməyib. Qəzetin baş redaktoru Tahir Süleymanovun sərbəst şəkildə kürd liderləri ilə görüşməsinə də sanki məqsədli şəkildə "yaşıl işıq" yandırılıb. Görünür, artıq iqtidar ideoloqları hər dəfə bu faktların ictimailəşməsinin hakimiyyət üçün mənfi nəticələrə səbəb ola biləcəyinin fərqindədir. Yaxud da başqa və daha dəhşətli təkzibedilməz faktlar var ki, hakimiyyət ciddi təşvişə düşüb və indidən buna qarşılıqlı tədbirlər görür. "Diplomat" qəzetinin təşkilatçılığı ilə keçirilən mətbuat konfransı da bu tədbirlərdən biri sayıla bilər. Mümkündür ki, tədbirdə kürdlərin Azərbaycan dövlətindən narazılığı hakimiyyətin kürdlərə xüsusi imtiyaz verməsi, PKK-nı dəstəkləməsi kimi faktların həqiqət olmadığı barədə rəy yaratmağa hesablansın.

Başqa bir versiya isə ondan ibarətdir ki, Azərbaycandakı separatçı kürdlər hakimiyyətdəki himayədarlarına güvənərək düşünür ki, artıq iddialarını açıq şəkildə bəyan etməyin zamanı gəlib. Separatçı kürdlər Ilham Əliyevə ünvanlanmış ultimativ müraciətlə Azərbaycan cəmiyyətinə mesaj verir ki, onlar əsassız iddialarını reallaşdırmaqda israrlıdırlar və bu, baş verməyəcəyi təqdirdə aranı qarışdıra bilərlər. Yeri gəlmişkən, musavat.com-da məlumatlı mənbəyə istinadən yazılıb ki, Türkiyədəki son parlament seçkilərində 35 deputat yeri qazanan PKK-ya bağlı Barış və Demokrat Partiyası Türkiyədə aranı qarışdırmaqla məşğul olduğu bir vaxtda, terror təşkilatının Azərbaycandakı qolu da burada fəallaşıb və faktiki olaraq separatçılıq fəaliyyətinə start verib.

Hər bir halda "Diplomat" qəzetinin təşkil etdiyi dünənki mətbuat konfransı "kürd mövzusu" ətrafında hansısa oyunların getdiyini göstərir. Və bu oyunların Əliyevlərin idarəçiliyi altında olan Azərbaycanın milli maraqlarına ziddi olduğunu bəribaşdan söyləmək mümkündür.

***"Azadlıq" qəzeti***
***Analitik şöbə***

# Rəbiyyət Aslanova: "Maraqlı qüvvələr kürd problemini Azərbaycana keçirməyə çalışırlar"

Milli Məclisin İnsan Haqları Üzrə Komitənin sədri kürd gənclərinin müraciətinə "bu yolverilməzdir" cavabını verdi

Milli Məclisin İnsan Haqları Komitəsinin sədri Rəbiyyət Aslanova bir qrup kürd xalqına mənsub şəxsin Prezidentə müraciətini şərh edərkən belə avantürist məqsədin gizli niyyətlərdən xəbər verdiyini bildirib. Modern.az saytına açıqlamasında komitə sədri deyib ki, guya hüquqlarının pozulduğunu idda edən kürd gənclərinin müraciəti ilə bağlı faktın mahiyyətinə varanda, uzağa gedən maraqlar ortaya çıxır.

"Yaxın Şərqdə, İraqda böyük analitik mərkəzlər tərəfindən qaynaqlanan prosesin Azərbaycana köçürülməsi yolverilməzdir. Və mümkün olan şey deyil. Mən bu məsələnin ortaya atılmasının bir səbəbini görürəm. Bu cəhdlər Azərbaycanın bütövlüyündən, xalqlar arasında hökm sürən yüksək münasibətlərdən qorxuya düşən, ona təsir etməyə çalışan ayrı-ayrı mənbələrin istəklərdi. Həmin istəklərə cavab verən insanlara acıyıram. "Biz kürdük deyə hüquqlarımız pozulur" ifadəsini işlədən hər kəs aparılan siyasəti bir daha izləsin. Həqiqətin gözünə açıq baxsın. Onlar Azərbaycana qarşı aparılan siyasətə yardımçı olmamalıdırlar. Bu gün dünyada "parçala və hökm sür" siyasətinin yeni variantda gerçəkləşməsi göz qarşısındadır. Yaxın Şərqdə proseslərin əksəriyyəti elə kürd məsələsi ilə başladı. Bu gün Türkiyənin parçalanmasına aparan məsələ kürd məsələsidir, İraqda baş verən hadisələrin kökündə kürd dövlətinin yaratmaq məsələsi durur"- deyə deputat bildirib.

Millət vəkili vurğulayıb ki, Azərbaycan dilindən, irqindən asılı olmayaraq birgə yaşayışın çox böyük mədəni məkandır. Ölkədə tolerantlıq mühitinin formalaşmasının bu günün deyil, yüz illər qabaq yaranmış münasibətin nəticəsi olduğunu deyən deputat Azərbaycanda heç vaxt etnik və dini zəmində qarşıdurma olmadığını deyib. R.Aslanovanın sözlərinə görə, bu amil xalqlar arasında ünsiyyət mühitinin yüksək dəyərlərə söykənməsidir.

Millət vəkilinin sözlərinə görə, Azərbaycanda bu gün çoxlu sayda milli azlıqlar, azsaylı xalqlar, etnik qruplar, o cümlədən kürdlər də yaşayır. Deputat qeyd edib ki, dünya üzrə 35 milyonluq kürdün çox az bir hissəsi keçmiş SSRİ ərazisində yaşayıb.

"Keçmiş SSRİ-də kürdlər cəmi 1 faiz yaşayırdı. Onların da yaşadıqları yerlər əsasən Azərbaycan, Ermənistan, Orta Asiya idi. Azərbaycanda heç vaxt "kürd" ifadəsi ilə insanlara münasibətdə ayrı-seçkilik olmayıb. Bu baxımdan bu gün "biz kürdük, buna görə bizə ayrı-seçkilik var" demək yanlış və əssasız fikirdir. Azərbaycanda milli azlıqlara münasibətdə əldə olunmuş uğurlar dünyaya nümunə ola biləcək modeldir. Ölkədə olan milli azlıqların heç biri söyləyə bilməz ki, onların milli mənsubiyyət hüququ pozulub. Bunun arxasında dövlət məfkurəsi olan azərbaycançılıq durur"-deyə deputat vurğulayıb. Onun sözlərinə görə, bizim birliyimiz Azərbaycanın dövlət süverenliyinin əsasıdır.



"Bu günə qədər "kürdsən" ifadəsi altında hansısa bir fərqli münasibətin sərgilənməsinin şahidi olmamışıq. Məni də çox təəccübləndirən budur ki, hansısa bir tədbirdə kürd mədəniyyətinə, dilinə və s. qarşı ögey münasibətə dair yanlış fikirlər səslənir. Bu xalq öz dilində danışır, mədəniyyətini, adətini, ənənəsini qoruyur. Bununla əlaqadar kürdlərə qarşı hər hansı məhdudiyyətlərin olması faktı ortada yoxdur"-deyə deputat sonda qeyd edib.

***Modern.az***

***Davamı səh. 6-da***

1:4-=.QXD 1/1/2004 5:26 AM Page 6



# PKK AZƏRBAYCANI DA QARIŞDIRIR

## Ölkəmizdə kürd probleminin olduğunu iddia edən bir qrup separatçı hökumət qarşısında siyasi tələblər qoydu

**Əvvəli səh. 5-də**

Azərbaycan vətəndaşı olan bir qrup kürd əsilli gənc dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayıb. "Turan"ın məlumatına görə, müraciət müəllifləri kürdlərin Azərbaycanda bir xalq kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını iddia edirlər. Onlar Azərbaycanda digər xalqların uşaq bağçaları, məktəb, teatr, folklor qrupları olduğunu, mədəniyyətlərinin telekanallarda təbliğ edildiyini, kürdlərinsə bundan məhrum olduqlarını bildirirlər.

Bununla yanaşı, digər xalqlardan deputatları olduğu halda, kürdlərin sözünü deyəcək deputat olmaması hakimiyyətə irad tutulur və bu, "kürd xalqına ögey münasibət" kimi dəyərləndirilir. Azərbaycanda kürd xalqına qarşı mənfi münasibət formalaşdığını iddia edən müəlliflər bunu aradan qaldırmaq üçün tele-təbliğata ehtiyac olduğunu qeyd edirlər.

"Azərbaycanda yaşayan kürd əhalisində belə fikir formalaşıb ki, kürd olmağımızı söyləsək, pis münasibətlə qarşılaşıb, təzyiqlərə məruz qalarıq", - deyə müəlliflər iddialarını davam etdirirlər. Çox az kürdlərin ana dilini bildiklərini qeyd edən müəlliflər kürd xalqına qarşı formalaşan mənfi fikrə görə övladlarına ana dilini öyrətmədiklərini bildirirlər: "Digər xalqlar kimi ana dilimizdə məktəblərimiz, normal mədəniyyət mərkəzimiz olsa, kürd xalqı xalq kimi məhv olmaq təhlükəsindən qurtarar. Əks halda, Azərbaycanda yaşayan kürd xalqı ana dilini, mədəniyyətini unudaraq məhvə məhkum edilmiş xalq sırasındadır ("Turan").

Qeyd edək ki, bu müraciət Azərbaycanda PKK-nın dəstəkçisi kimi tanınan "Diplomat" qəzetinin bu gün Beynəlxalq Mətbuat Mərkəzində təşkil etdiyi tədbirdə açıqlanıb. Məsələ ondadır ki, iyunun 28-də BMM "Diplomat" qəzetinin iyunun 29-u saat 12:00-da bu mətbuat mərkəzində 1915-ci ildə ermənilərin 800 min nəfər müsəlman kürdünü qətlə yetirməsi ilə bağlı tədbir keçirəcəyi haqda redaksiyalara dəvət göndərmişdi. Amma tədbirdə ermənilər deyil Azərbaycan dövləti ittiham olunub. Görünür, tədbirin adının başqa cür qoyulması jurnalistlərin bu mətbuat konfransına diqqətini cəlb etmək məqsədi daşıyıb.

İndiki məqamda Azərbaycanda yaşayan kürdlərin bir qrupunun PKK ilə bağlılığı olan "Diplomat" qəzetinin təşəbbüsü ilə fəallaşması və Azərbaycan dövləti qarşısında siyasi tələblər qoyması təsadüfi deyil. Bu məsələlər haqda kifayət qədər məlumatı olan şəxs bizimlə söhbətində bildirdi ki, PKK rəhbərliyi bu təşkilatın siyasi qanadına Türkiyədə və Azərbaycanda fəallaşmaq və aranı qarışdırmaq göstərişi verib. Buna görə də Türkiyədəki son parlament seçkilərində 35 deputat yeri qazanan PKK-ya bağlı Barış və Demokrat Partiyası Türkiyədə aranı qarışdırmaqla məşğul olduğu bir vaxtda, terror təşkilatının Azərbaycandakı qolu da burada fəallaşıb və faktiki olaraq separatçılıq fəaliyyətinə start verib.

Məlumatlı mənbə bildirib ki, son illər Azərbaycanda PKK-ya bağlı qüvvələrin dayaqlarının daha da güclənməsi gectez ölkədə kürd separatizminin baş qaldırmasına aparacaqdı.

Onu da qeyd edək ki, illərdir müstəqil mətbuat Azərbaycanda PKK-ya bağlı qüvvələrin olduğu, burada PKK bazasının qurulduğu, bu terror təşkilatının müxtəlif qanadlarına buradan pul ötürüldüyü barədə ortaya tutarlı faktlar qoyub. Amma hakimiyyət bununla bağlı hər hansı tədbir görməyib. İndi bunun nəticəsidir ki, PKK-ya bağlı qüvvələr Azərbaycanda siyasi tələblərlə çıxış edirlər. Faktiki olaraq isə Azərbaycanda kürd problemi yoxdur. Hamı kimi kürdlər də bu ölkənin vətəndaşlarıdır və istədikləri kimi yaşayırlar.

Azərbaycanda kürdlərin fəallaşması Türkiyə siyasi elitasında da narahatlıq yaradıb. Türkiyə siyasətçilərindən biri "Yeni Müsavat"a bildrdi ki, Azərbaycan hakimiyyəti və cəmiyyəti bu məsələyə çox ciddi yanaşmalıdır: "Əslində hələ bir neçə il əvvəldən proseslər buna doğru gedirdi. Azərbaycan dövləti vaxtında lazımi tədbirlər görməli idi. Türkiyədə də kürd separatizmi belə baş qaldırdı və sonra onun qarşısını almaq mümkün olmadı. Odur ki, Azərbaycan dövləti gecikmədən məsələni həll etməlidir. Burada Azərbaycanda kürdlərin fəallaşmasının Türkiyədəki proseslərin fonunda baş verməsinə də ciddi yanaşmaq lazımdır".

***"Yeni Müsavat"***
***Teymur HƏSƏNLİ***

# "İSTƏRDİM Kİ, PARLAMENTDƏ İKİ KÜRD DEPUTAT OLSUN"

## Tahir Süleyman: "PKK ilə əlaqəm olsaydı mənə beşmərtəbəli bina alıb verərdilər"

Xəbər verdiyimiz kimi, bir qrup kürd əsilli gənc dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayıb. Daha çox ultimatuma bənzəyən müraciətin müəllifləri kürdlərin Azərbaycanda bir xalq kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını iddia edirlər. Onlar Azərbaycanda digər xalqların uşaq bağçaları, məktəb, teatr, folklor qrupları olduğunu, mədəniyyətlərinin telekanallarda təbliğ edildiyini, kürdlərin isə bundan məhrum olduqlarını bildirirlər. Bununla yanaşı, kürdlərin sözünü deyəcək deputatın olmaması hakimiyyətə irad tutulur və bunu "ögey münasibət" kimi dəyərləndiriblər. Qeyd edək ki, bu müraciət "Diplomat" qəzetinin Beynəlxalq Mətbuat Mərkəzində təşkil etdiyi tədbirdə açıqlanıb. Tədbirin təşkilatçısı isə PKK terror təşkilatına bağlı olduğu bildirilən "Diplomat" qəzeti rəhbərliyi olub.

"Diplomat" qəzetinin redaktoru Tahir Süleyman isə bizimlə söhbətində dedi ki, mətbuat konfransının əsas məqsədi 1905-1920-ci illərdə kürdlərin ermənilər tərəfindən qətlə yetirilməsi ilə bağlı arxiv materiallarını cəmiyyətə təqdim etmək olub. T.Süleymanovun sözlərinə görə, ölkə başçısına müraciətin müəllifi o yox, əslən Laçın rayonundan olan Nicat Cəbrayılov olub: "Mənim müraciətdən xəbərim olmayıb, onu Laçın rayonundan olan Nicat Cəbrayılov yayıb. Nicat gənc Azərbaycan kürdlərinin təşkilatını yaratmaq istəyir. Bununla bağlı Ədliyyə Nazirliyinə müraciət edib. Bizim onunla heç bir bağlılığımız yoxdur. Sadəcə, onlar imkansızlıq ucbatından bizə də müraciət edib dedilər ki, mətbuat konfransında onlara da söz deməyə şərait yaradaq."

"Diplomat" qəzetinin redaktoru dedi ki, gənclərin təkliflərini dəstəkləyir: "Bilirsiniz ki, bu gün kürdlər qaçqın kimi ölkənin 66 rayonuna dağılıb. Yaxşı olardı onlar üçün bir dil kursları, folklor qrupları yaradılsın. Orabura düşüb heç kimdən maliyyə yardımı almadan, prezidentimizin ayırdığı maliyyə dəstəyi ilə kürd folklor qrupları, dil kursları təşkil edilsin. Dilimiz itməsin".

T.Süleyman iddia etdi ki, Azərbaycanda azsaylı xalqlara verilən mədəni haqlar kürdlərə verilmir: "Biz istərdik ki, bizim də haqlar tanınsın. İstərdim ki, parlamentdə iki kürd deputatı olsun. Çox vaxt bəyənmirik, ancaq İraq Kürdüstanında 4 türkmən, erməni, assuri deputat var. Bunun nəyi pisdir?"

Tahir Süleyman Türkiyədə fəaliyyət göstərən PKK terror təşkilatı ilə heç bir əlaqəsinin olmadığını bildirdi: "Mənim PKK ilə heç bir əlaqəm yoxdur. Mən bir kürd olaraq özümü Səlahəddin Əyyubinin davamçısı, onun əqidəsində olan adam hesab edirəm. Səlahəddin Əyyubi səlib yürüşlərinə qarşı böyük mübarizə aparıb. Amma PKK ilə heç bir əlaqəm yoxdur. Bu gün mənim ofisim evimdədir. Türkiyə kimi dövlət PKK ilə bacarmır. PKK ilə əlaqəm olsaydı, indi mənə beşmərtəbəli bina alıb verərdilər, çoxlu da pul. Amma indi mən öz evimdə işləyirəm".

***"Yeni Müsavat"***
***KƏNAN***

# Ermənilər 1915-ci ildə 800 min müsəlman kürdünü qətlə yetirib

**Tahir Süleyman:** *"Bunu erməni mətbuatı da təsdiqləyir"*
**Nicat Cəbrayılov:** *"Ermənilərin törətdiyi əməllər təbliğ edilməlidir"*

"Özlərini dünyaya mələk kimi göstərən ermənilər 1915-ci ildə 800 min müsəlman kürdünü qətlə yetirib". Bu fikirləri "Diplomat" qəzetinin təşkilatçılığı ilə düzənlənən mətbuat konfransında mətbu orqanın təsisçisi və baş redaktoru Tahir Süleyman səsləndirdi.

T.Süleyman qeyd etdi ki, ermənilər özlərinin çirkin niyyətlərini həyata keçirmək üçün bütün vasitələrə əl atıb: "Məlumdur ki, ermənilər rus havadarları hesabına müsəlmanların səxavətindən istifadə edərək Anadoluya yerləşib. Sonradan digər ərazilərə yayılmağa başlayıb, öz "fikir"lərini gerçəkləşdirməyə çalışıblar. Ermənilərin müsəlman kürdlərini amansızcasına qətlə yetirməsi erməni mətbuatında da işıq üzü görüb. 1916-cı ildə çıxan bir mətbu orqanda 1915-ci ildə 800 min kürdün öldürülməsi faktı yer alıb. O zaman gedən döyüşlərdə 360 min ermənininin qətlə yetirildiyi də deyilir. Yəni bu soyqırım siyasətini mənfur ermənilər başlayıb. Türk araşdırmaçıları da belə bir tarixi faktın reallıq olduğunu, 800 min müsəlman kürdünün soyqırıma məruz qaldığını təsdiqləyir. Eyni zamanda, Fazil Qaraoğlu adlı müəllifin "Ermənilər və həqiqətlər" kitabı çox dəyərlidir və burada ermənilərin hansı əməllər törətdiyi, çirkin siyasətləri real şəkildə əks olunub. Həqiqətlər çılpaqlığı ilə təsvir edilib. Bütün bunların qarşılığında indi ermənilər özlərini dünyaya məsum, yazıq kimi göstərir".

Baş redaktor müsəlman kürdlərinin ermənilər tərəfindən soyqırıma məruz qalması ilə bağlı ölkədəki xarici diplomatlara müraciət edəcəklərini, habelə, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən təşkilatlar qarşısında məsələ qaldıracaqlarını diqqətə çatdırdı.

Kürd gəncləri adından danışan Nicat Cəbrayılov əsas məqsədlərindən birinin Kürd Gəncləri Təşkilatı yaratmaq olduğunu dedi. O hesab edir ki, bu təşkilatın yaradılması ilə ermənilərin azərbaycanlıların başına gətirdiyi fəlakətlər barəsində təbliğat işi aparmaq olar: "Ermənilərin Xocalıda törətdiyi vəhşilikləri, soyqırımı bütün dünyaya yaymaq niyyətindəyik.

Bütün dünya bilməlidir ki, ermənilər əslində hansı "işlər" görüb. Nəinki Xocalıda baş verənlər, həmçinin ermənilərin tarix boyu müsəlmanların başına gətirdiyi fəlakətlər, törədilən soyqırımlar təbliğ edilməlidir".

***Zaur ZAHİDOĞLU***

***Davamı səh. 8***

1:4-=.QXD 1/1/2004 5:26 AM Page 7



